AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# STATE RESPONSIBILITY IN INTERNATIONAL LAW: MODERN PROBLEMS AND CHALLENGES

**Roza Nabiyeva**[1]

**UDC:** 341.23
**LBC:** 67.91
**HoS:** 115
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.123-140

**Keywords:**

International law, State responsibility, United Nations, Draft Articles on the Responsibility of States for Internationally Wrongful Acts, International legal responsibility

## ABSTRACT

The international legal responsibility of states is one of the fundamental and oldest institutions of international law. In modern international law, one of the guiding principles is the principle of sovereign equality. According to this principle, states participate in mutual relations and multilateral international communication, each possessing sovereignty in internal affairs and independence in foreign policy.

According to the theory of international law, the subjects of international responsibility are the subjects of international law themselves. The Draft Articles adopted by the UN General Assembly were primarily devoted to the responsibility of states toward other states. However, it should be noted that the general part of the Articles also covers the responsibility of states toward other subjects of international law.

This article examines and analyzes the historical development and codification process of state responsibility in international law, the content of the Articles on the Responsibility of States for Internationally Wrongful Acts adopted by the UN International Law Commission, as well as the grounds, principles, forms, and methods of holding states internationally accountable. It should be emphasized that the issue of types and forms of international legal responsibility remains relevant in modern international law doctrine.

The concept of international legal responsibility of the state forms the foundation for maintaining the international order. However, since 2001-when the International Law Commission (ILC) completed the Draft Articles on the Responsibility of States for Internationally Wrongful Acts - the world has undergone radical changes: global environmental threats, transnational and cyber risks, pandemics, and large-scale conflicts have emerged.

Global security crises, the limited jurisdiction of international courts, the growing role of non-state actors, and the political dependence of international law all complicate the implementation of state responsibility. Nevertheless, the institution of international legal responsibility remains the main mechanism ensuring the application of international legal norms among states. The relevance of this institution continues to increase in a rapidly changing and globalizing world.

The purpose of the article is to reveal the essence of the institution of state responsibility in international law, determine its legal foundations, and analyze the main trends in its development.

---

[1] Senior lecturer at the National Defense University; Baku, Azerbaijan
E-mail: http://roza.nebiyeva1962@gmail.ru
https://orcid.org/0009-0001-6675-2761

**To cite this article:** Nabiyeva, R. [2025]. State Responsibility in International Law: Modern Problems and Challenges. *History of Science journal*, *6*(5), pp.123-140.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.123-140

***Article history:***
*Received: 29.09.2025*
*Revised: 30.10.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# DÖVLƏTLƏRİN BEYNƏLXALQ HÜQUQİ MƏSULİYYƏTİ: MÜASİR PROBLEMLƏR VƏ ÇAĞIRIŞLAR

**Roza Nəbiyeva**[1]

**UOT:** 341.23
**KBT:** 67.91
**HoS:** 115
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.123-140

**Açar sözlər:**

Beynəlxalq hüquq, Dövlətlərin məsuliyyəti, BMT, Dövlətlərin Beynəlxalq Qeyri-Hüquqi Aktlara Görə Məsuliyyəti haqqında Maddələr Layihəsi, Beynəlxalq hüquqi məsuliyyət

## ANNOTASİYA

Dövlətlərin beynəlxalq-hüquqi məsuliyyəti beynəlxalq hüququn əsas və ən qədim institutlardan biridir. Müasir beynəlxalq hüquqda rəhbər prinsiplərdən biri suveren bərabərlik prinsipidir. Bu prinsipə əsasən, dövlətlər qarşılıqlı münasibətlərdə və çoxtərəfli beynəlxalq ünsiyyətdə iştirak edir, hər biri daxili işlərdə suverenliyə və xarici siyasətdə müstəqilliyə malik olur.

Beynəlxalq hüquq nəzəriyyəsinə əsasən, beynəlxalq məsuliyyətin subyektləri beynəlxalq hüququn subyektləridir. BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Maddələr Layihəsi əsasən dövlətlərin digər dövlətlər qarşısında məsuliyyətinə həsr olunmuşdu. Lakin qeyd etmək lazımdır ki, maddələrin ümumi hissəsi dövlətlərin digər beynəlxalq hüquq subyektləri qarşısında da məsuliyyətini əhatə edir.

Məqalədə dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti məsələnin tarixi inkişafı və kodifikasiya prosesi, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Beynəlxalq Hüquq Komissiyası tərəfindən qəbul edlən Dövlətlərin Beynəlxalq Qeyri-Hüquqi Aktlara Görə Məsuliyyəti haqqında Maddələrin məzmunu, dövlətlərin cinayət məsuliyyətinə cəlb etmənin əsaslarını, prinsiplərini, forma və üsullarını nəzərdən keçirilir və təhlil edilir. Qeyd etmək lazımdır ki, hazırda beynəlxalq hüquq doktrinasında beynəlxalq-hüquqi məsuliyyətin növləri və formaları məsələsi aktual olaraq qalır.

Dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti anlayışı beynəlxalq düzənin saxlanılmasının əsasını təşkil edir. Lakin 2001-ci ildə, Beynəlxalq Hüquq Komissiyasının (BHK) Dövlətlərin Beynəlxalq Qeyri-Hüquqi Aktlara Görə Məsuliyyəti haqqında Maddələr Layihəsini (ML) tamamladığı andan etibarən dünya köklü şəkildə dəyişdi: qlobal ekoloji təhlükələr, transmilli və kiber təhdidlər, pandemiyalar və genişmiqyaslı münaqişələr yarandı.

Qlobal təhlükəsizlik böhranları, beynəlxalq məhkəmələrin səlahiyyətlərinin məhdudluğu, qeyri-dövlət aktorlarının artan rolu və beynəlxalq hüququn siyasətdən asılılığı kimi amillər dövlət məsuliyyətinin həyata keçirilməsini çətinləşdirir. Bununla yanaşı, beynəlxalq hüquqi məsuliyyəti institutu dövlətlər arasında beynəlxalq hüquq normalarının tətbiqini təmin edən əsas mexanizmdir. Bu institutun aktuallığı sürətlə dəyişən dünya və qloballaşma şəraitində daha da yüksəlir.

Məqalənin məqsədi dövlətlərin beynəlxalq məsuliyyəti instititinun mahiyyətini açmaq, onun hüquqi əsaslarını müəyyənləşdirmək və bu institutun inkişafının əsas tendensiyalarını təhlil etməkdir.

---

[1] Milli Müdafiə Universitetinin baş müəllimi; Bakı, Azərbaycan
E-mail: http://roza.nebiyeva1962@gmail.ru
https://orcid.org/0009-0001-6675-2761

**Məqaləyə istinad:** Nəbiyeva, R. [2025]. Dövlətlərin Beynəlxalq Hüquqi Məsuliyyəti: Müasir Problemlər və Çağırışlar. *History of Science jurnalı*, 6(5), səh.123-140.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.123-140

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 29.09.2025*
*Yenidən baxılıb: 30.10.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ОТВЕТСТВЕННОСТЬ ГОСУДАРСТВ В МЕЖДУНАРОДНОМ ПРАВЕ: СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И ВЫЗОВЫ

**Роза Набиева**[1]

**УДК:** 341.23
**ББК:** 67.91
**HoS:** 115
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.123-140

**Ключевые слова:**

Международное право, Ответственность государств, Организация Объединённых Наций, Проект статей о международно-противоправных деяниях государств, Международно-правовая ответственность

## АННОТАЦИЯ

Международно-правовая ответственность государств является одной из фундаментальных и древнейших институций международного права. В современном международном праве одним из основополагающих принципов выступает принцип суверенного равенства. Согласно этому принципу, государства участвуют во взаимных отношениях и многостороннем международном общении, обладая суверенитетом во внутренних делах и независимостью во внешней политике.

Согласно теории международного права, субъектами международной ответственности являются сами субъекты международного права. Проект статей, принятый Генеральной Ассамблеей ООН, был посвящён, прежде всего, ответственности государств перед другими государствами. Однако следует отметить, что общая часть Статей охватывает также ответственность государств перед другими субъектами международного права.

В данной статье рассматриваются и анализируются историческое развитие и процесс кодификации ответственности государств в международном праве, содержание Статей о международно-противоправных деяниях государств, принятых Комиссией международного права ООН, а также основания, принципы, формы и методы привлечения государств к международно-правовой ответственности. Следует подчеркнуть, что вопрос о видах и формах международно-правовой ответственности остаётся актуальным в современной доктрине международного права.

Понятие международно-правовой ответственности государства составляет основу поддержания международного порядка. Однако с 2001 года, когда Комиссия международного права завершила Проект статей о международно-противоправных деяниях государств, мир радикально изменился: появились глобальные экологические угрозы, транснациональные и киберриски, пандемии и масштабные конфликты.

Глобальные кризисы безопасности, ограниченная юрисдикция международных судов, возросшая роль негосударственных акторов и политическая зависимость международного права затрудняют реализацию ответственности государств. Тем не менее институт международно-правовой ответственности остаётся главным механизмом обеспечения действия международно-правовых норм между государствами. Его актуальность продолжает возрастать в быстро меняющемся и глобализирующемся мире.

Цель статьи - раскрыть сущность института ответственности государств в международном праве, определить его правовые основы и проанализировать основные тенденции его развития.

[1] Старший преподаватель Национального университета обороны; Баку, Азербайджан
E-mail: http://roza.nebiyeva1962@gmail.ru
https://orcid.org/0009-0001-6675-2761

**Цитировать статью:** Набиева, Р. [2025]. Ответственность Государств в Международном Праве: Современные Проблемы и Вызовы. *Журнал History of Science, 6*(5), с.123-140.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.123-140

***История статьи:***
*Поступила: 29.09.2025*
*Переработана: 30.10.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Beynəlxalq hüququn əsas prinsiplərdən biri dövlətlərin öz öhdəliklərinə riayət etməsi və onların pozulması halında məsuliyyətə cəlb edilməsidir. Dövlətlərin məsuliyyəti institutu dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsində fundamental əhəmiyyət daşıyır.

Lakin qlobal siyasətin mürəkkəbləşməsi, güc mərkəzlərinin dəyişməsi və beynəlxalq orqanların səmərəsiz fəaliyyəti bu institutun praktiki tətbiqini çətinləşdirir. XX əsrin sonlarından etibarən beynəlxalq hüququn kodifikasiyasında mühüm mərhələ 2001-ci ildə BMT-nin Beynəlxalq Hüquq Komissiyası tərəfindən qəbul edilən "Dövlətlərin beynəlxalq məsuliyyəti haqqında Maddələr Layihəsi" olmuşdur. Bununla belə, sənədin hüquqi baxımdan məcburi olmaması və tətbiq mexanizmlərinin qeyri-müəyyənliyi müasir problemlərin əsas qaynaqlarındandır.

Dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti - beynəlxalq münasibətlərdə sabitlik və ədalətin təminatı üçün fundamental institutdur. Yeni texnoloji və siyasi reallıqlar institutun adaptasiyasını və yenilənməsini tələb edir. Yalnız beynəlxalq birliyin səyi dinc şərait və beynəlxalq təhlükəsizliyin qorunması naminə bu institutun effektiv işləməsini təmin edə bilər.

## 2.Dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti institutunun mahiyyəti, tarixi inkişafı və kodifikasiya prosesi

Beynəlxalq hüquq meydana gəldiyi gündən dövlətlərarası münasibətlərin tənzimlənməsinin hüquq qaydası kimi yaranıb inkişaf etmişdir. Beynəlxalq hüquq dövlətlər tərəfindən təsadüfi olaraq yaradılmayıb, bu hüquq tarixən zaman və məkan meyarları ilə şərtləşən reallığın məhsulu, obyektiv qanunauyğunluqların nəticəsi olaraq təşəkkül tapıb.

Beynəlxalq hüququn yaranması və inkişafı obyektiv qanunauyğunluğun, yəni dövlətlərarası sistemin subyektləri arasında yaranan münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi zərurəti ilə bağlıdır. Bu hüquq beynəlxalq birlik tərəfindən öz həyati əhəmiyyətli maraqlarına xidmət etmək məqsədilə yaradılıb.

1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin qəbulu ilə müasir beynəlxalq hüququn əsası qoyulub. İlk öncə qeyd edilməlidir ki, müasir beynəlxalq hüquq BMT-in təsiri altında əhəmiyyətli dərəcədə inkişaf edir. Beynəlxalq aləmin başlıca vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək olduğundan həmin vəzifəni həyata keçirməkdə BMT əsas mexanizm kimi çıxış edir. Elmi ədəbiyyatda əsaslı olaraq qeyd edilir ki, yeni beynəlxalq hüququn bünövrəsini BMT Nizamnaməsi təşkil edir. Ona görə ki, məhz həmin Nizamnamədə beynəlxalq hüququn əsas məqsəd və vəzifələri ətraflı olaraq öz təsbitini tapmışdır. Nizamnamənin 1-ci maddəsində vurğulanır ki, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması, sülhə təhlükənin qarşısının alınması, təcavüz aktlarını və sülhün digər formada pozulması hallarını aradan qaldırmaq, millətlər və xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial və humanitar xarakterli beynəlxalq problemləri birgə həll etmək BMT-nin əsas məqsədini təşkil edir.

XX əsrin sonlarında dünyanın hərbi-siyasi balansında dəyişiklik baş verdi. Dünyada müəyyən mənada sosial-iqtisadi böhranın əsası qoyuldu, milli-etnik münaqişələrin sayı artmağa başladı, terrorizm, kiber və digər transmilli cinayətkarlığın dairəsi və məkan sferası artmağa başladı. Ərazilərin ekspansiyası, karbohidrogen ehtiyatlarına sahib olmaq uğrunda nüfuz mübarizəsi konkret dövlətlərin ərazilərinə münasibətdə təcavüz aktlarına yol açdı, ərazilər işğal olundu. Belə əməllərin qarşısının alınması beynəlxalq məsuliyyət institutunun fəal inkişafına səbəb olmuşdur. Beynəlxalq məsuliyyət beynəlxalq hüququn özünün səmərəli fəaliyyətinin təmin olunması və pozulmuş hüquqların və münasibətlərin yenidən bərpa olunmasını təmin edən hüquqi vasitədir. Praktiki olaraq dünyanın bütün hüquqi sistemləri beynəlxalq hüquq normalarını və beynəlxalq müqavilələr üzrə öz öhdəliklərini pozan dövlətlərin beynəlxalq hüquqi məsuliyyətini tanıyır.

Dövlətlərin məsuliyyəti mövzusu artıq iyirminci əsrin birinci yarısında beynəlxalq hüququn inkişafında əsas maraq doğuran sahələrdən biri kimi qəbul edilirdi. Bu, Millətlər Liqası tərəfindən kodifikasiya üçün seçilmiş və 1930-cu ildə Haaqada keçirilən uğursuz konfransın əsas mövzularından biri idi. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Beynəlxalq Hüquq Komissiyasını (bundan sonra "BHK") yaratdı və dövlətlərin məsuliyyəti məsələsi bu yeni orqanın nəzərdən keçirəcəyi ilk 14 mövzunun siyahısına daxil edildi. Bu məsələ üzrə ilk Xüsusi Məruzəçi F. V. Qarsia-Amador (Kuba) 1956-cı ildə işə başladı və 1961-ci ilə qədər olan dövrdə BHK-nın dövlətlərin xarici vətəndaşların şəxsiyyətinə və ya əmlakına dəyən ziyana görə məsuliyyəti, həmçinin məsuliyyətin ümumi aspektlərinin öyrənilməsinə yönəlmiş işinə diqqət yetirən altı hesabat təqdim etdi.

1962-ci ilə qədər BMT-nin Beynəlxalq Hüquq Komissiyasının diqqətini "dövlətin beynəlxalq məsuliyyətini tənzimləyən ümumi normaların müəyyən edilməsinə" (R. Aqo) yönəltməsi fikri dəstək qazandı. Bu mövzu üzrə ikinci Xüsusi Məruzəçi kimi professor Aqo (İtaliya) 1969-cu ildən 1980-ci ilə qədər olan dövrdə əhəmiyyətli bir əlavə ilə yanaşı səkkiz hesabat təqdim etdi. Bu zaman ərzində BHK, dövlətlərin məsuliyyətinin mənşəyini və əsas xüsusiyyətlərini təşkil edən 35 maddəni qəbul etdi (hal-hazırda Dövlətlərin Beynəlxalq Qeyri-Hüquqi Aktlara Görə Məsuliyyəti haqqında Maddələrin birinci hissəsidir).

1980-1986-cı illər ərzində üçüncü Xüsusi Məruzəçi cənab V. Rifahen (Hollandiya) yeddi hesabat təqdim etdi və onun müzakirənin inkişafı baxımından əsas nailiyyəti Beynəlxalq Hüquq Komissiyanın "zərərçəkmiş dövlət" anlayışının geniş tərifini ilkin olaraq qəbul etməsi oldu.

Cənab Rifaheni cənab C. Aranho Ruiz (İtaliya) əvəz etdi, onun işinin sonunda (1988-1996-cı illər) səkkiz hesabat təqdim etdikdən sonra BMT-nin Beynəlxalq Hüquq Komissiyası şərhlərlə birlikdə Layihə Maddələrinin ilk hərtərəfli mətnini qəbul etdi. Cənab C. Aranho Ruiz kompensasiya, əks-tədbirlər, “beynəlxalq cinayətlər”in nəticələri və mübahisələrin həlli bölmələrin tərtib etməsi ilə əhəmiyyətli töhfə verdi [5].

1997-ci ildə Komissiya C. Kroufordu (Avstraliya) Xüsusi Məruzəçi təyin etdi və 1998-2001-ci illərdə maddələr lahiyyələrinin oxunuşunu həyata keçirdi. 1998-2000-ci illərdə bütün mətn yenidən nəzərdən keçirildi, hökumətlərə rəylərin verilməsi üçün təqdim olundu və onların müzakirəsindən sonra BMT-nin Baş Assambleyası 2001-ci ildə keçirilən 53-cü sessiyada 59 maddələrdən ibarət yekun variant - Maddələr Lahiyələri (şərhlərlə birlikdə) qəbul edildi.

BMT-nin Baş Assambleyası 12 dekabr 2001-ci il tarixli 56/83 saylı Qətnamə ilə maddələri (qətnamənin əlavəsində olan mətni) nəzərə aldı və onların gələcək taleyi haqqında qərar vermədən hökumətlərin diqqətinə çatdırdı.

BMT-nin Baş Assambleyası, 2 dekabr 2004-cü il tarixli 59/35 saylı Qətnamədə Dövlətlərin Beynəlxalq Qeyri-Hüquqi Aktlara Görə Məsuliyyəti haqqında Maddələri yenidən hökumətlərin diqqətinə təqdim etdi, həmçinin Baş Katibdən bu maddələrə istinad edən beynəlxalq məhkəmələrin, tribunalların və digər orqanların qərarlarının ilkin toplusunun hazırlamaq xahiş olunurdu. BMT-nin Baş Assambleyası, 6 dekabr 2007-ci il tarixli 62/61 saylı Qətnaməsində bu toplunu məmnunluqla qeyd etdi, hökumətlərin diqqətini bir daha Maddələrə yönəltdi və maddələr əsasında dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyətinə dair Konvensiya və ya digər müvafiq tədbirlər məsələsinin müzakirəsinin davam etdirilməsi barədə qərar qəbul etdi. Oxşar mövqe 6 dekabr 2010-cu il tarixli Baş Assambleyanın 65/19 saylı Qətnaməsində də öz əksini tapdı. Bəzi nümayəndə heyətləri Maddələrrin müzakirəsi üçün beynəlxalq konfransın çağırılmasına aktiv şəkildə təkid etsə də, digərləri onların Beynəlxalq Hüquq Komissiyasının mətni statusunun saxlanılmasına üstünlük verdi. Həqiqətdə isə Maddələr geniş dəstək qazanmış və praktikada, o cümlədən, Beynəlxalq Məhkəmə tərəfindən səmərəli tətbiq olunmuşdur.

Maddələrin strukturu. Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyəti haqqında əlli doqquz maddə dörd hissəyə bölünür.

Birinci hissə (Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyəti, maddə 1-27) öz növbəsində beş fəsildən ibarətdir (Ümumi prinsiplər, maddə 1-3; Davranışın dövlətə aid edilməsi, maddə 4-11; Beynəlxalq hüquqi öhdəliyin pozulması, maddə 12-15; Bir dövlətin başqa dövlətin hərəkəti ilə əlaqədar məsuliyyəti, maddə 16-19; Qeyri-hüquqiliyi istisna edən hallar, maddə 20-27).

İkinci hissə (Dövlətin beynəlxalq məsuliyyətinin məzmunu, maddə 28-41) öz növbəsində üç fəsildən ibarətdir (Ümumi prinsiplər, maddə 28-33; Ziyanın əvəzinin ödənilməsi, maddə 34-39; Beynəlxalq hüququn məcburi normalarından irəli gələn öhdəliklərin ciddi pozuntuları, maddə 40-41) [2,2; 5].

Üçüncü hissə (Dövlətin beynəlxalq məsuliyyətinin implementasiyası, maddə 42-54) iki fəsildən ibarətdir (Dövlətin məsuliyyətə cəlb edilməsi, maddə 42-48; Əks tədbirlər, maddə 49-54).

Dördüncü hissə (maddə 55-59) mətnin yekun beş ümumi müddəasından ibarətdir.

Dövlətlərin beynəlxalq hüquqi məsuliyyətinin əsas prinsipləri. 1956-1961-ci illərdə Qarsia-Amadorun rəhbərliyi altında tərtib edilmiş dövlətlərin məsuliyyəti haqqında ilk hesabatlarda, digərləri ilə yanaşı, əsas diqqət diplomatik müdafiəyə, həmçinin digər maddi-hüquqi öhdəliklərə aid beynəlxalq hüququn maddi-hüquqi normalarına yönəlmişdir. Bu yanaşma həddindən artıq iddialı olduğuna görə də, uğursuz oldu və tezliklə BHK-nın işi köhnə və ya yeni dövlət öhdəlikləri ehtiva edən maddi-hüquqi müddəalar məcəlləsinin işlənib hazırlanmasına yox, daha məhdud, lakin daha real vəzifəyə dövlətlərin məsuliyyətinə dair çərçivə normalarının işlənib hazırlanmasına yönəldildi.

Son variantı kontekstində 1996-cı il Maddələr Layihəsi dövlətlərin məsuliyyəti normalarını "ikinci dərəcəli normalar" kimi xarakterizə etmək olar.

Dövlətlərin maddi-hüquqi öhdəliklərin məzmunu və müddəti ilə bağlı hüquqi normalar müxtəlif sənədlərdə və adi hüquqda təsbit edilmiş birinci dərəcəli normalar olduğu halda, Maddələr isə tətbiq edilən birincilik öhdəliyin pozulmasın nəticələrini müəyyən edən ümumi çərçivəni təqdim edir. Əks halda, Maddələrin dövlətlərə onlara hansı növ öhdəliklərin qoyula biləcəyini göstərməklə müdaxilə təhlükəsi daim mövcud olardı.

**3.Dövlətlərin beynəlxalq hüquqi məsuliyyətinin əsasları**

1969-1980-ci illərdə qəbul edilmiş otuz beş maddə layihəsi, xüsusilə də aid etmə (atribusiya) və beynəlxalq qeyri-hüquqi aktlarla bağlı ümumi əsaslara və hallara dair normalara xüsusi təsir göstərdi. Onlara tez-tez alimlər və məhkəmələr tərəfindən istinad edilirdi. Birinci Hissədə dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyətinin əsas xüsusiyyətlərini müəyyən edən fundamental postulatlar əks olunub. Dövlətin məsuliyyətinə aid ilkin, fundamental prinsip maddə 1-də öz əksini tapıb, hansı ki, aşağıdakını nəzərdə tutur: "Dövlətin hər bir beynəlxalq qeyri-hüquqi aktı həmin dövlətin beynəlxalq məsuliyyətini doğurur" [2,1; 5]. Xüsusilə vacibdir ki, belə bir müddəa, təklif edildiyi kimi, yalnız dövlətlərin digər dövlətlər qarşısında məsuliyyəti ilə məhdudlaşdırılmır, bu da Məqalələrin əhatə etdiyi öhdəliklər dairəsini əhəmiyyətli dərəcədə daraldar və beynəlxalq hüququn inkişafına mane ola bilərdi. Bundan əlavə, maddə 1-də müqavilələli və qeyri-müqavilələli öhdəliklər arasında fərq qoyulmur: buna görə də ex contractu məsuliyyət ilə ex delicto məsuliyyət arasında prinsipial fərq qoyulmur, həmçinin bu ümumiləşdirmə səviyyəsində ikitərəfli və çoxtərəfli öhdəliklər arasında fərq qoyulmur (həmçinin bax: maddə 12).

Maddə 2-də beynəlxalq qeyri-hüquqi aktın mövcud olduğunu müəyyən etmək üçün tələb olunan elementlər öz əksini tapıb: a) dövlətə aid edilən davranış, hansı ki, b) beynəlxalq öhdəliklərə uyğun gəlmir. Bu müddəanın mühüm xüsusiyyətlərindən biri beynəlxalq qeyri-hüquqi aktın mövcud olduğunu müəyyən etmək məqsədilə dövlət

tərəfindən təqsirin və ya qeyri-hüquqi niyyətin olmaması tələbidir. Əlbəttə ki, bu, dövlətin məsuliyyətinə dair hüquqi normalarda təqsir elementinin olmaması demək deyil. Əksinə, bu, beynəlxalq məsuliyyətə dair müxtəlif ilkin normaların "lazımi ehtiyatlıq"dan "ciddi məsuliyyət"ə qədər olan diapazonda müxtəlif təqsir standartları müəyyən edə biləcəyini ifadə edən mühüm aspekti əks etdirir. Maddələrdə əks olunan mövqe onu göstərir ki, beynəlxalq məsuliyyətin baş verməsi üçün hər bir halda təqsir elementinin olması həmişə lazım deyil. Əlbəttə ki, bu, bəzi və hətta bir çox hallarda tələb oluna bilər, lakin belə bir müəyyən etmə dövlətlərin öhdəliklərinə dair ilkin normaların təsiri dairəsinə daxildir, bu halda Maddələr bu elementləri nə tələb edən, nə də istisna edən neytral mövqeni əks etdirir. Müəyyən bir davranışın dövlətə aid edilməsinə gəldikdə, Birinci Hissənin II Fəslindəki müddəalarda bu anlayışın həm subyektiv, həm də funksional baxımdan əhatə dairəsi xüsusi olaraq müəyyən edilir (bax: maddə 4-də "dövlət orqanı" anlayışı; maddə 8-də "dövlətin rəhbərliyi və ya nəzarəti altında fəaliyyət göstərən şəxslər və ya qruplar" anlayışı; maddə 6-da "başqa dövlət tərəfindən dövlətin sərəncamına verilmiş orqan" anlayışı; maddə 5-də "dövlət səlahiyyəti elementlərini həyata keçirən şəxslər və ya təşkilatlar" anlayışı; maddə 9-da "rəsmi hakimiyyətlərin olmaması və ya fəaliyyətsizliyi zamanı hərəkət edən şəxslər və ya qruplar" anlayışı; maddə 10-da "üsyançı və ya digər hərəkatın hərəkətləri" anlayışı) [2,3; 5].

II Fəsil dövlət tərəfindən özününkü kimi tanınan və qəbul edilən davranışa görə məsuliyyət haqqında müddəa ilə (maddə 11) başa çatır.

Birinci Hissənin III Fəslində beynəlxalq öhdəliyin pozulmasının temporal aspektinin bəzi mühüm cəhətləri nəzərdən keçirilir: tempus regit aktum prinsipi (maddə 13); pozuntunun davam etdiyi zaman (maddə 14); və mürəkkəb hərəkətdən ibarət olan pozuntu (maddə 15). Lakin müxtəlif növ pozuntular və ya bu məqsəd üçün müxtəlif kateqoriyalı öhdəliklər arasında analitik səviyyədə fərq qoymaq üçün heç bir cəhd edilmədi. Qeyd etmək lazımdır ki, Xüsusi Məruzəçi Aqo beynəlxalq hüquqi aktların hərtərəfli və çox ətraflı təsnifatını işləyib hazırlamışdı. Cinayətlər və deliktlər (sonradan imtina edilmiş) arasındakı fərqdən əlavə, professor Aqo tərəfindən işlənib hazırlanmış bu məsələlərə dair maddələr layihələrində, xüsusilə, davranış, nəticə və qarşısının alınması öhdəlikləri, həmçinin davam edən çox tərkibli və mürəkkəb qeyri-hüquqi əməllər arasında fərqlər qoyulur. Beləliklə, son mətn - bu, birincil normanın şərhinə daha çox azadlıq verən xeyli sadələşdirilmiş variantdır.

Dövlətin məsuliyyətinə aid etmə məsələsi həmçinin dövlətin başqa dövlətin beynəlxalq qeyri-hüquqi əməlləri ilə mümkün əlaqəsi kontekstində, xüsusilə də kömək və ya yardım (maddə 16), rəhbərlik və nəzarət (maddə 17) və ya məcbur etmə (maddə 18) hallarında nəzərdən keçirilir. Bu müddəalar Birinci Hissənin IV Fəslində daxil edilib. Bu müddəaların əsasında duran fikir ondan ibarətdir ki, birbaşa qeyri-hüquqi aktı törətməyən dövlət, buna baxmayaraq, məsuliyyət daşıyır, əgər o, hərəkətin hallarından xəbərdar idisə və əgər belə bir hərəkət bu dövlət tərəfindən (və ya məcburiyyət olmadan məcbur edilən dövlət tərəfindən) törədildiyi halda beynəlxalq qeyri-hüquqi əməldirsə. Əsas anlayış olan qeyri-hüquqiliyə gəldikdə, Birinci Hissənin V Fəslində "qeyri-hüquqiliyi istisna edən hallar" siyahısı verilib, məhkəmə kontekstində bunlar müdafiə arqumentləri adlanır. Onlara aiddir: razılıq (maddə 20), özünümüdafiə (maddə 21), legitim əks tədbirlər (maddə 22; sonradan Üçüncü Hissədə, II Fəsildə işlənib hazırlanmışdır); fors major (maddə 23); fəlakət (maddə 24); və son zərurət vəziyyəti (maddə 25) [2,4; 5].

***3.1.Dövlətlərin məsuliyyətinin nəticələri.***

Maddələrin İkinci Hissəsində əsasən iki məsələ nəzərdən keçirilir: bir tərəfdən, orada dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyətinin ən mühüm nəticələri, yəni dayandırma, təkrar etməmə və ziyanın əvəzini ödəmə öhdəliyi xüsusi olaraq göstərilir. Digər tərəfdən, o, qeyri-hüquqi aktların xüsusi kateqoriyasına toxunur: problemli

"beynəlxalq cinayətlər" kateqoriyasını əvəz edən aktlar indi "ümumi beynəlxalq hüququn məcburi normalarından irəli gələn öhdəliklərin ciddi pozuntuları" adlanır.

İkinci Hissənin I Fəslində beynəlxalq qeyri-hüquqi aktların nəticələri öz əksini tapıb: belə bir akt məsul dövlətin pozulmuş öhdəliyi yerinə yetirmək qabiliyyətini saxlayan vəzifəsini təsir etmir (maddə 29); əgər pozuntu davam edirsə, məsul dövlət öz davranışını dayandırmaq öhdəliyi daşıyır (maddə 30, bənd (a)) və, əgər şərait tələb edirsə, aktın təkrar olunmaması barədə müvafiq təminat və zəmanət verməlidir (maddə 30, bənd (b)). Bundan əlavə, beynəlxalq qeyri-hüquqi akt məsul dövlətin dəyən ziyanın tam əvəzini ödəmək vəzifəsini doğurur (maddə 31) [2,6; 5].

Pozulmuş öhdəliyi yerinə yetirmə vəzifəsinə gəldikdə, onun beynəlxalq qeyri-hüquqi aktın nəticələri arasında statusu mübahisə doğurmur, çünki məsul dövlətin qeyri-hüquqi akt üçün beynəlxalq məsuliyyət normalarından irəli gələn öhdəliklərin yerinə yetirməməsinə əsaslandırma kimi öz daxili hüququ müddəalarına istinad edə bilməzliyi prinsipi (maddə 32). Dayandırma öhdəliyinə gəldikdə, qeyd etmək lazımdır ki, artıq Xüsusi Məruzəçi Aranho Ruiz dövründə BHK belə bir hüquqi vasitənin (təkrar etməmə ilə yanaşı) ziyanın əvəzinin ödənilməsi ilə bərabər statusa malik olduğu qənaətinə gəldi. Təkrar etməmə zəmanətlərinə gəldikdə, onların beynəlxalq öhdəliklərin pozulması nəticələri kimi statusu daha çox müzakirə olundu. Xüsusilə, onlar daha çox dayandırma və ya ziyanın əvəzinin ödənilməsinə oxşar kimi qəbul edilməli və ya, ümumiyyətlə beynəlxalq məsuliyyətin ayrıca nəticəsi kimi qiymətləndirilməsi müzakirənin mövzusu oldu. Sonuncu məsələyə gəldikdə, onların daxil edilməsi təklifinə dövlətlərin daimi dəstəyi həlledici rol oynadı. Onların yalnız "əgər şərait tələb edərsə" (maddə 30, bənd (b) qeydin onlara çevik alət xarakteri verdiyini vurğulamaq lazımdır; onlar həmişə beynəlxalq qeyri-hüquqi aktın nəticəsi deyillər. Çox güman ki, onlar yalnız sorğu edən dövlətə və ya onun adından hərəkət etdiyi digər dövlətlərə ziyanın təkrar vurulması real təhlükəsi olduqda müvafiq hesab ediləcək.

### *3.2.Ziyanın əvəzinin ödənilməsi xarakteri və formaları*

Maddə 31-də ifadə olunan ümumi normaya uyğun olaraq, beynəlxalq qeyri-hüquqi akt törətməyə görə məsul dövlət bu aktla dəyən ziyanın tam əvəzini ödəmək öhdəliyi daşıyır. "Ziyan" hərəkətlə vurulan hər hansı maddi və ya mənəvi zərər kimi müəyyən edilir. Maddə 31-də aşağıdakı narahatlıq doğuran aspektlər nəzərdən keçirilir: a) "ziyan" və "zərər" anlayışları arasında konseptual ayrılığı qorumaq məqsədilə müddəaların belə formalaşdırılması zəruri hesab edildi; b) şərh ilə bağlı ola biləcək çətinliklərə baxmayaraq, kompensasiya edilə biləcək hər növ maddi olmayan itkiləri bir ifadədə əks etdirmək məqsədilə "mənəvi ziyan" anlayışını qorumaq məqsədə uyğun hesab edildi; c) səbəbli əlaqə ilə bağlı mübahisəli məsələ müxtəlif səbəbli əlaqəsi uzaqlığı və asılılığı meyarlarının müxtəlif öhdəliklərə və ya müvafiq ilkin norma əsasında qorunmaq üzrə marağın nəzərə alınması ilə müxtəlif kontekstlərdə müvafiq ola biləcəyinin tətbiqinə imkan vermək məqsədilə "dəyən" sözünün istifadəsi ilə həll edildi [2,7; 5].

Maddə 35-37-də ziyanın əvəzinin ödənilməsinin ala biləcəyi formalar ətraflı şəkildə öz əksini tapıb: restitusiya, kompensasiya və satisfaksiya. Gördüyümüz kimi, zərər çəkmiş dövlət üstünlük verdiyi ziyanın əvəzinin ödənilməsi növünü göstərmək hüququna malik olsa da, restitusiya maddi cəhətdən mümkün olmadığı və ya kompensasiya əvəzinə restitusiya almaqdan əldə edilən faydadan tamamilə qeyri-mütənasib bir yük doğurmadığı hallar istisna olmaqla, ziyanın əvəzinin ödənilməsinin əsas forması kimi qəbul edilir. Əgər restitusiya mümkün deyilsə və ya tam ziyanın əvəzinin ödənilməsini təmin etmək üçün kifayət deyilsə, "maliyyə cəhətdən hesablana bilən" zərər üçün kompensasiya ödənilir. Dəyən ziyan restitusiya və ya kompensasiya yolu ilə əvəz oluna bilmədikdə, məsul dövlət dəyən ziyana görə satisfaksiya vermək öhdəliyi daşıyır.

Ümumi beynəlxalq hüququn imperativ normalarından irəli gələn öhdəliklərin ciddi pozuntuları (40-41-ci maddələr). BHK çərçivəsində digər aktiv müzakirə (1970-ci ildə

Beynəlxalq Məhkəmənin "Barselona Trakşn" şirkəti işində qəbul etdiyi qərarla əlaqədar daha da canlandı) dövlətlər tərəfindən törədilən qeyri-hüquqi aktların ayrıca kateqoriyasının müəyyən edilməsinin məqsədəuyğunluğu ilə bağlı idi. Belə qeyri-hüquqi pozuntular o dərəcədə ciddi hesab olunurdu ki, onlar tək zərərçəkmiş dövləti deyil, bütövlükdə beynəlxalq birliyi təhqir edirdi və belə əməlləri "beynəlxalq cinayətlər" kimi tövsif edilməsi məqsədəuyğun hesab edilmişdir. Bu təklif, olduqca mübahisəli olsa da, kifayət qədər dəstək qazandı və bunun sayəsində 1996-cı il layihəsinin maddə 19-na "beynəlxalq cinayətlər" anlayışı daxil edildi. Orada beynəlxalq cinayət "beynəlxalq birliyin həyati vacib maraqlarının təmin edilməsi üçün əsas olan beynəlxalq öhdəliyin pozulması nəticəsində yaranan dövlətin beynəlxalq qeyri-hüquqi aktı kimi, onun pozulması beynəlxalq birlik tərəfindən cinayət kimi qəbul edildi.

1996-cı il layihəsində dövlətlərin məsuliyyətinə dair hüquqi normaların inkişafı prosesində aşağıdakı iki müvafiq aspekt nəzərdən keçirilirdi: bir tərəfdən, bəzi öhdəliklər ayrı-ayrı dövlətlərə deyil, beynəlxalq birliyə qarşı öhdəliklər kimi tövsif edilir, digər tərəfdən belə öhdəliklərin xüsusilə ciddi pozuntuları xüsusilə sərt sanksiyaları doğurmalıdır.

Dövlətlərin əksəriyyəti tərəfindən bu ümumi prinsiplərlə razılaşmağa baxmayaraq, dövlətləri "cinayətə" görə məsuliyyətə cəlb etmək fikri dərin ixtilaflar doğurur və doğurmaqda davam edir. Əhəmiyyətli sayda dövlətlərin etirazlarından əlavə, beynəlxalq cinayətlər haqqında müddəalar cinayət konsepsiyanın beynəlxalq hüquqi münasibətlərin hüquqi bazası ilə uzlaşmadan, həmçinin dövlətlərin fəaliyyətinin cinayət-hüquqi tövsif edilməsi ilə yanaşı, cinayət məsuliyyətinin korrelyatları olan, lakin 1996-cı il layihəsində olmayan lazımi hüquqi prosedura riayət etməyin əsas zəmanətlərinin təmin edilməsi zərurətindən irəli gələn problemlər yaradır [2,8; 5].

Nəticədə, bu mülahizələr "beynəlxalq cinayətlər" anlayışından imtina etməyə səbəb oldu, lakin beynəlxalq birliyinin ümumiyyətlə bəzi mühüm hüquqi maraqlarının daha çox qorunmasının təmin edilməsi zərurəti Maddələrdə "ümumi beynəlxalq hüququn imperativ normasından irəli gələn öhdəliyin ciddi pozuntusu" kateqoriyasının (İkinci Hissə, III Fəsil, maddə 40-41) tətbiqi ilə öz əksini tapdı. İmperativ normalar anlayışı Beynəlxalq Müqavilələr Hüququ haqqında iki Vyana Konvensiyasında məlum kodifikasiya edilmiş presedent əsasında qurulub və hal-hazırda geniş tanınır. Bu və ya digər normanın imperativ kimi tövsif edilməsi məsələsi təkamül edən dövlət praktikası, həmçinin səlahiyyətli məhkəmə orqanlarının qərarları çərçivəsində həll edilir. Maddə 40-da məsul dövlət tərəfindən imperativ norma ilə nəzərdə tutulmuş öhdəliyin kobud və ya sistematik şəkildə yerinə yetirilməməsi əks olunub. Belə ciddi pozuntular halında, hüquq pozucu üçün hər hansı beynəlxalq öhdəliyin pozulmasından irəli gələn nəticələrdən əlavə, maddə 41-də ifadə olunan əlavə nəticələr yaranır. Maddə 40-41-də bəzi əsas öhdəliklərin ən kobud pozuntuları törədildikdə bütün dövlətlərin cavab tədbirləri həyata keçirə biləcəyi tanınır. Bu, belə pozuntuları hüquqauyğun kimi tanımamaq, pozuntunun nəticəsi kimi yaranan qeyri-legitim vəziyyətin qorunmasına kömək və ya yardım göstərməmək qadağası, həmçinin belə vəziyyətə qanuni vasitələrlə son qoymaq üçün əməkdaşlıq etmək vəzifəsini öz üzərinə götürür. Məsələn, soyqırım, təcavüz, aparteid və özünü təyinetmə hüququnun həyata keçirilməsinə zorla imtina, ümumiyyətlə ümumi beynəlxalq hüququn imperativ normaları tərəfindən qadağan edilmiş kimi qəbul edilir, Beynəlxalq Məhkəmənin fikrincə, "bəşəriyyəti şoka salan" pozuntulardır. Problemli "cinayət" terminindən istifadə etməkdən qaçınmaqla, bu normaların pozulması ilə əlaqəli nəticələri müddəalarda əks etdirmək məqsədəuyğun görünür.

Məsuliyyətə cəlb etmə prinsipi. Birinci və İkinci Hissələrdə dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlarının əsas xüsusiyyətləri və nəticələri izah olunur. Belə aktlardan irəli gələn məsuliyyətə cəlb etmək hüququna hansı dövlətlərin malik olduğu və bunun vasitəsilə edilə biləcəyi prosedurların nə olduğu ilə bağlı digər suallar yaranır. Bu suallar Üçüncü

Hissədə nəzərdən keçirilir. Dövlətləri məsuliyyətə cəlb etmək hüququna malik olan şəxs məsələsi beynəlxalq münasibətlər sahəsində dövlətlərin müxtəlif öhdəlikləri nəzərə alaraq həll edilməli idi. Belə vəzifələr ikitərəfli və ya çoxtərəfli münasibətlər kontekstində, həmçinin hər hansı fərq qoymadan bütün beynəlxalq birliyin xeyrinə olan öhdəçilərdən irəli gələ bilər. Başqa sözlə, məsuliyyətə cəlb etmək hüququ həmişə beynəlxalq öhdəliyin pozulması zərər çəkmişin (qurbanının) statusu ilə əlaqəli deyil: zərər çəkmiş dövlət beynəlxalq qeyri-hüquqi akt üçün məsuliyyətə cəlb etmək hüququna malik olan yeganə dövlət olmaya bilər, baxmayaraq ki, hər hansı cavab tədbirləri baxımından üstünlük zərər çəkmiş dövlətlərdə qalmalıdır. Bu səbəbdən, bir tərəfdən, maddə 42-də zərər çəkmiş dövlət konsepsiyası kifayət qədər dar şəkildə müəyyən edilir (əsasən Beynəlxalq Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının maddə 60, bənd 2 əsasında), maddə 48 isə kollektiv marağı qorumaq üçün məsuliyyətə cəlb etmə, yəni zərər çəkməmiş dövlətləri də əhatə edir.

Maddə 42-də nəzərdə tutulur ki, öhdəliyin pozulması dövlətə başqa dövləti məsuliyyətə cəlb etmək hüququ verir, əgər bu öhdəlik ayrı-ayrılıqda həmin dövlətə qarşı öhdəlikdir və ya, çoxtərəfli öhdəliklər kontekstində, əgər belə bir dövlət pozuntudan xüsusi olaraq təsirlənibsə, və ya, əgər öhdəlik elə xarakter daşıyırsa ki, öhdəliyin mövcud olduğu bütün digər dövlətlərin vəziyyətini bu öhdəliyin sonrakı yerinə yetirilməsi baxımından kökündən dəyişir. Qeyd etmək lazımdır ki, "inteqral" öhdəliklər - yalnız o öhdəliklərdir ki, ciddi şəkildə "hamısı və ya heç biri" prinsipi əsasında fəaliyyət göstərir, elə ki, hər bir dövlət tərəfindən öhdəliyin yerinə yetirilməsi əslində hər bir digər tərəfin öhdəliyin yerinə yetirilməsinə şərtlidir (məsələn, tərksilah sahəsində müəyyən öhdəliklər).

Şəxsən pozuntu nəticəsində ziyan çəkməmiş, məsuliyyətə cəlb etmək hüququna malik dövlətlər maddə 48-də sadalanır:

i) öhdəliyi müəyyən edilən, qorumasında kollektiv marağı olan dövlətlər qrupuna aid dövlətlər;

ii) ümumiyyətlə beynəlxalq birliyə qarşı öhdəliyin pozulmasına görə məsuliyyətə cəlb etməyə çağrış edən hər hansı dövlət. Maddə 1-də beynəlxalq məsuliyyətin müəyyən edilməsinə olduğu kimi, maddə 48-də də erga omnes öhdəliklərin əhatə dairəsi onların benefisiyarlarının dairəsini yalnız dövlətlərlə məhdudlaşdırılmır. Bu mənada maddə 48-ə aid olan beynəlxalq birlik anlayışı o deməkdir ki, bu birlik yalnız dövlətlərdən ibarət deyil və digər strukturları, məsələn, Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsini və s. əhatə edir.

Ümumiyyətlə, zərər çəkmiş dövlət daha müvafiq hesab etdiyi ziyanın əvəzinin ödənilməsi formasını seçmək hüququna malikdir. Beləliklə, o, restitusiya əvəzinə kompensasiyaya üstünlük verə bilər və ya ümumi plan və ya öz tələbinin konkret aspekti ilə əlaqədar deklarativ qorunma ilə kifayətlənə bilər (maddə 43, bənd 2). Ziyanın əvəzinin ödənilməsi formasının seçimi, davam edən qeyri-hüquqi aktı dayandırmaq üçün məsul dövlətin həyata keçirməli olduğu davranışın göstərilməsi ilə yanaşı, zərər çəkmiş dövlətin öz hüquqlarının təmin edilməsi əsası kimi məsul dövlətə göndərməli olduğu bildirişin mümkün aspektləridir (maddə 43) [2,10; 5].

Maddə 44-də nəzərdə tutulur ki, dövləti məsuliyyətə cəlb etmək imkanı da tələbin milli və yerli hüquqi vasitələrin tükənməsi ilə bağlı hər hansı tətbiq olunan normalara riayət edilməsi ilə şərtlənir. Bu tələblər haqqında 2006-cı ildə qəbul edilmiş BHK-nın diplomatik müdafiəyə dair maddələrində daha ətraflı danışılır. Məsuliyyətə cəlb etmək hüququ maddə 45-də göstərilən aşağıdakı iki halda hərəkət etmir: birinci hal - bu, zərər çəkmiş dövlətin belə hüquqdan ya özü pozuntu, ya da onun bəzi və ya bütün nəticələri barədə imtina etdiyi halda; imtina açıq şəkildə ifadə edilməli və birmənalı olmalıdır. İkinci hal bir qədər daha mürəkkəbdir. Bu, zərər çəkmiş dövlətin "öz davranışına görə tələb hüququnun itirilməsinə susmaq hüquqi cəhətdən etibarlı razılıq verdiyi hesab edilməli olduğu" halda. Məsuliyyətə

cəlb etmə məqsədləri üçün aydın şəkildə müəyyən edilmiş müddət müəyyən edilməyib: həlledici amil ondan ibarətdir ki, cavabdeh digər tərəfin artıq tələbin ödənilməsinə can atmayacağına ağlabatan şəkildə inana bilərmi, bununla da gecikməni əsassız edir. Maddələrdə həmçinin eyni hərəkət və ya əməliyyatla bağlı, bir çox dövlətlərin iştirak etdiyi tələblər məsələsi nəzərdən keçirilir. Həm bir neçə dövlət tərəfindən, həm də bir neçə dövlətə qarşı məsuliyyətə cəlb etməyə gəldikdə, beynəlxalq hüququn mövqeyi birmənalıdır: hər bir dövlət öz beynəlxalq öhdəlikləri ilə əlaqədar öz davranışına görə məsuliyyət daşıyır və hər bir zərər çəkmiş dövlət bu dövlətin hərəkətindən irəli gələn itkilərlə bağlı hər hansı məsul dövlətə tələb irəli sürmək hüququna malikdir. Bu norma maddə 47, bənd 2-də ifadə olunan aşağıdakı iki qeydə tabedir: zərər çəkmiş dövlət kompensasiya qaydasında çəkdiyi ziyandan daha çoxunu əldə edə bilməz (ikiqat tələb qadağası norması), və ziyanın əvəzinin ödənilməsi məsələləri bir neçə dövlət eyni ziyana görə məsuliyyət daşıdığı hallarda dövlətlər arasında yarana bilər.

***3.3.Əks tədbirlər***

Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyəti ilə bağlı ən mübahisəli məsələlər arasında, hüquqi vasitə kimi və zərər çəkmiş dövlətin və ya onun adından cavab reaksiyası kimi əks tədbirlərə müraciət etmək imkanı. Maddələrin Üçüncü Hissəsinin III Fəsli tərəfindən qurulmuş müxtəlif maddi-hüquqi və prosessual məhdudiyyətlərin mövzusu olmuşdur. Əks tədbirlər məsul dövlət tərəfindən hərəkətin dayandırılması və ziyanın əvəzinin ödənilməsinin təmin edilməsi vasitəsi kimi icazə verilir. Buna görə də, onların təsiri ağrılı olsa belə, onlar özlüyündə cəza və ya intiqam kimi qəbul edilə bilməz (maddə 49). Bu maddi-hüquqi məhdudiyyətdən mahiyyət etibarilə müvəqqəti xarakterli əks tədbirlər irəli gəlir, hansı ki, məsul dövlətə qarşı müəyyən beynəlxalq hüquqi öhdəliklərin müvəqqəti yerinə yetirilməməsi ilə məhdudlaşır (maddə 49, bənd 2), və onlar dayandırılmalıdır "məsul dövlət öz beynəlxalq qeyri-hüquqi aktı ilə bağlı öhdəliklərini İkinci Hissəyə uyğun olaraq yerinə yetirən kimi" (maddə 53). Əks tədbirlərin müvəqqəti xarakteri nəzərə alınmaqla, onlar müvafiq öhdəliklərin yerinə yetirilməsinin bərpa edilməsinə imkan verəcək şəkildə qəbul edilməlidir (maddə 49, bənd 3) onlara riayət etməyə hazırlıq olduğu halda. Əks tədbirlərə münasibətdə əsas kəmiyyət və keyfiyyət məhdudiyyəti mütənasiblik tələbidir: maddə 51 nəzərdə tutur ki, onlar "dəyən ziyana, beynəlxalq qeyri-hüquqi aktın ağırlığı və təsir edilmiş hüquqlar nəzərə alınmaqla, mütənasib olmalıdır". Əks tədbirlərə münasibətdə digər maddi-hüquqi məhdudiyyətlər maddə 50-də qurulur, ona əsasən bəzi fundamental maddi-hüquqi öhdəliklər qarşı tədbirlər tərəfindən təsirlənə bilməz (güc tətbiqi və ya onun tətbiqi təhdidi, insan hüquqları sahəsində fundamental öhdəlik, humanitar xarakterli, repressaliyaları qadağan edən öhdəliklər və, ümumi mənada, məcburi normlardan irəli gələn öhdəliklər). Bundan əlavə, əks tədbirlər müvafiq dövlətlər arasında rabitə kanallarının qorunması, xüsusilə də maraqlı dövlətlər arasında münasibətlərdə tətbiq olunan münaqişələrin həlli prosedurları ilə bağlı olanlar, həmçinin diplomatik agentlərin və konsulu vəzifəli şəxslərin, diplomatik və konsulu binaların, arxivlərin və sənədlərin toxunulmazlığı ilə bağlı müəyyən öhdəliklərə təsir etmir. Maddə 52, bənd (b)-də nəzərdə tutulur ki, əks tədbirlər müvəqqəti dayandırılır, müvafiq dövlətlər arasında münaqişə tərəflər üçün məcburi qərarlar çıxarmaq səlahiyyətinə malik məhkəmə və ya tribunalın nəzərindədir. Lakin, səmimi şəkildə danışıqlar aparılması zamanı əks tədbirlərin tətbiq (qəbul) edilməsi qadağası son maddələr variantından çox qeyri-müəyyən və birmənalı olması səbəbindən xaric edildi. Əks tədbirlər həmçinin bir sıra prosessual şərtlərin (maddə 52) təsiri dairəsinə daxildir, onların arasında məsul dövlətləri dayandırma və ziyanın əvəzinin ödənilməsi ilə bağlı öhdəliklərini yerinə yetirməyə çağırmaq vəzifəsi də var. Məsul dövlət həmçinin qarşı tədbirlərin qəbulu barədə hər hansı qərardan xəbərdar edilməlidir və ona danışıqlar aparmaq üçün şans verilməlidir. Əks tədbirlərin qəbulu üçün ən mübahisəli prosessual maneələrdən biri, yəni məsul dövlətin əks tədbirlərlə bağlı mübahisəni arbitraj nəzərdən keçirməsinə

təqdim etmək hüququ, son layihədən xaric edildi. Geniş münaqişələr dairəsinin məcburi məhkəmə həllinə müraciət etməyin belə ümumiləşdirilmiş müddəası hökumətlər tərəfindən lazımi dəstək qazanmadı. Buna görə də təklif olunan ayrıca kateqoriya "müvəqqəti qarşı tədbirlər" müəyyən mənada artıq oldu, lakin maddə 52, bənd 2-nin müddəaları yenə də zərər çəkmiş dövlətə "onun hüquqlarının təmin edilməsi üçün zəruri olan belə təcili əks tədbirləri" qəbul etməyə imkan verir. Və nəhayət, maddələr layihələrinin işlənməsi prosesində tədbirlərin zərər çəkmiş dövlətdən fərqli olan dövlətlər tərəfindən qəbul edilməsi ehtimalı müzakirə olundu. Belə tədbirlər həm bəzi və ya bir çox dövlətlərin birgə hərəkət etdiyi halları, həm də reaksiya verən dövlətin çoxtərəfli öhdəliyin pozulmasına reaksiya kimi ictimai maraqlarda əks tədbirlərin tətbiqi hüququnu həyata keçirdiyi və ya tədbirlərin bir neçə cəlb olunmuş dövlət tərəfindən koordinasiya edildiyi halları göstərmək üçün "kollektiv əks tədbirlər" adlanırdı. Hal-hazırda kollektiv əks tədbirlərə dair beynəlxalq hüquq normaları məhdud və ilkin inkişaf mərhələsində olsa da, görünür ki, bütün dövlətlər humanitar və digər böhranlar, kollektiv öhdəliklərin ciddi pozuntuları ilə əlaqədar beynəlxalq təşkilatların hərəkətsizliyi halında fərdi tədbirlərin qəbulu imkanından tamamilə imtina etməyiblər. Belə qeyri-müəyyən vəziyyəti nəzərə alaraq, maddələr layihələrində əks olunan son mövqe, mövqeni qoruyan və bu məsələnin son qərarını beynəlxalq hüququn sonrakı inkişafı prosesinə həvalə edən istisna qeydinin daxil edilməsindən ibarət idi. Maddə 54-də nəzərdə tutulur ki, əks tədbirlər haqqında fəsil "hər hansı zərər çəkməmiş, başqa dövləti məsuliyyətə cəlb etmək hüququna malik olan dövlətin pozulmuş öhdəliyin benefisiyarlarının xeyrinə pozuntunun dayandırılması və ziyanın əvəzinin ödənilməsinin təmin edilməsi üçün “məsul dövlətə qarşı qanuni tədbirlər həyata keçirmək" hüququna təsir etmir [2, 11; 5].

IV Hissə Maddələr digər beynəlxalq hüquq müddəalarına münasibətdə maddələrin hərəkət dairəsi və əhatəsini izah edən qısa yekun müddəalarla başa çatır. Maddə 57 və 58-də izah olunur ki, Maddələr beynəlxalq təşkilatların məsuliyyətinə (həmçinin beynəlxalq təşkilatın davranışına görə hər hansı digər dövlətin məsuliyyətinə) və ya dövlət adından hərəkət edən hər hansı şəxsin beynəlxalq hüququ üzrə məsuliyyətinə tətbiq olunan hüquqi normalara təsir etmir. 2011-ci ildə Beynəlxalq Hüquq Komissiyası bu məsələləri nəzərdən keçirən beynəlxalq təşkilatların məsuliyyətinə dair maddələr layihələri məcmusunu qəbul etdi. Maddə 55 və 56-da nəzərdə tutulur ki, maddələrin predmeti hər dəfə xüsusi qanun tərəfindən tənzimləndikdə, sonuncu tətbiq edilir, həmçinin Maddələr tərəfindən tənzimlənməyən məsələlərə aid hər hansı digər tətbiq olunan beynəlxalq hüquq norması. Yekunda maddə 59-də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin dövlətlərin məsuliyyəti məsələlərində primatı bir daha elan edir .

Beynəlxalq Hüquq Komissiyasının Dövlətin Məsuliyyətinə dair Maddələrin geniş təhlili dövlətlərin cinayət məsuliyyətinə cəlb edilməsinə həm hüquqi, həm də rəhbəredici xarakrter daşıyır və məhkəmə praktikası xüsusi əhəmiyyət kəsb edir, presedent kimi tətbiq olunur.

BMT-nin Beynəlxalq Hüquq Komissiyası (ILC) tərəfindən 2001-ci ildə qəbul edilmiş “Dövlətlərin beynəlxalq məsuliyyəti haqqında Maddələr beynəlxalq hüquq nəzəriyyəsində dövlətlərin beynəlxalq məsuliyyət konsepsiyanın fəal inkişafına təkən vermişdir. Beynəlxalq hüquqda “dövlətlərin məsuliyyəti” anlayışı dövlətlərin beynəlxalq öhdəliklərinin pozulması halında hüquqi nəticələrin müəyyənləşdirilməsi ilə bağlı olan əsas institutdur.

Dövlət məsuliyyəti - beynəlxalq hüququn pozulması nəticəsində yaranan və pozuntunu törədən dövlətə qarşı tətbiq olunan hüquqi nəticələr sistemidir. Başqa sözlə, dövlət məsuliyyəti beynəlxalq hüququn pozulmasının nəticələrini aradan qaldırmaq, zərəri ödəmək və gələcəkdə oxşar halların qarşısını almaq məqsədi daşıyır. Bu konsepsiyanın əsas prinsipi belə ifadə olunur: “Hər bir beynəlxalq hüquqa zidd əməl dövlətin məsuliyyətini yaradır.”

Dövlətlərin məsuliyyəti konsepsiyası beynəlxalq hüququn əsas dayaq sütunlarından biridir. O, beynəlxalq nizamın qorunmasına, ədalətli münasibətlərin bərqərar olmasına və dövlətlərin davranışına hüquqi çərçivə gətirilməsinə xidmət edir. Dövlət məsuliyyətinin prinsipləri həm dövlətlərin suverenliyinin sərhədlərini, həm də beynəlxalq münasibətlərdə cavabdehlik mexanizmini müəyyən edir.

Gələcəkdə beynəlxalq münasibətlərin daha mürəkkəbləşməsi fonunda bu konsepsiyanın tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, xüsusilə kibərməkanda və ekoloji hüquqda yeni normativ yanaşmaların formalaşdırılmasını zəruri edir.

## 4.Dövlət məsuliyyətinin yeni formaları və müasir çağırışlar

### *4.1.Transmilli təhdidlərə görə dövlət məsuliyyəti*

Dövlət məsuliyyəti anlayışı ənənəvi olaraq beynəlxalq hüquqa zidd əməl törədilməsi ilə əlaqələndirilir (BMT-nin Beynəlxalq Hüquq Komissiyasının 2001-ci il layihəsinə əsasən). Lakin bu sənəd hazırlanarkən müasir transmilli təhlükələr bu qədər geniş yayılmamışdı. Hazırda beynəlxalq hüquqa zidd hərəkət anlayışı genişlənmişdir və aşağıdakı halları da əhatə edir: dövlətin ərazisindən terror fəaliyyəti və ya başqa təhdidin qarşısını almaması; kibertəhlükəsizlik və ekoloji öhdəlikləri yerinə yetirilməməsi; qlobal təhlükəsizlik üçün əhəmiyyətli məlumatların gizlədilməsi (məsələn, epidemiyalar və ya texnogen fəlakətlər zamanı). Bu şəraitdə dövlət məsuliyyətinin ənənəvi modelləri, əsasən dövlətlərarası münaqişələrə yönəlik olduğundan, müasir risklərə adekvat deyil.

Müasir beynəlxalq hüquq suverenliyi yalnız hüquq kimi deyil, həm də öhdəlik kimi nəzərdən tutur. Dövlət öz ərazisinə nəzarət etməklə yanaşı, oradan digər ölkələrə və ya bütün bəşəriyyətə zərər gəlməməsini təmin etməlidir. Bu, yeni bir modelin - funksional məsuliyyətin - formalaşmasına gətirib çıxarır. Dövlət təkcə daxili təhlükəsizlik üçün deyil, həm də beynəlxalq sabitlik naminə cavabdehdir.

Müasir dövlətlərarası münasibətlər sistemdə sülh və təhlükəsizliyin təmin olunması, qarşıdurmaların və silahlı münaqişələrin, ərazi toxunulmazlığı, transmilli cinayətkarlığa qarşı mübarizə müasir beynəlxalq hüququn prioritetlərindən hesab olunur.

Beynəlxalq hüququn əsas prinsiplərindən biri dövlətlərin öz öhdəliklərinə riayət etməsi və onların pozulması halında məsuliyyətə cəlb edilməsidir. Dövlət məsuliyyəti institutu dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsində fundamental əhəmiyyət daşıyır. Lakin qlobal siyasətin mürəkkəbləşməsi, güc mərkəzlərinin dəyişməsi və beynəlxalq orqanların səmərəsiz fəaliyyəti bu institutun praktiki tətbiqini çətinləşdirir.

### *4.2.Terror təhdidlərə görə dövlət məsuliyyəti*

Dövlətlərin terrorizmə qarşı mübarizədə məsuliyyətini müəyyən edən əsas beynəlxalq sənədlərə BMT Təhlükəsizlik Şurasının 1373 (2001) və 2178 (2014) saylı Qətnamələri; BMT-nin Qlobal Antiterror Strategiyası (2006); Terrorizmin maliyyələşdirilməsinə qarşı Konvensiya (1999) və s. aiddir. Bu sənədlərə əsasən, dövlətlər təkcə terror aktlarında iştirak etdiklərinə görə deyil, həm də terrorçu qruplara sığınacaq, maliyyə və ya hər hansı dəstək göstərdiklərinə görə məsuliyyət daşıyırlar. Belə ki, Əfqanıstan (1998-2001) "Taliban" rejimi "Əl-Qaidə" terror təşkilatına sığınacaq verirdi. BMT Təhlükəsizlik Şurası bunu dövlət məsuliyyətinin pozulması kimi qiymətləndirərək sanksiyalar tətbiq etdi.

Terrorizmlə mübarizə beynəlxalq hüquqda yeni bir anlayışı doğurmuşdur - kollektiv məsuliyyət. Bəzi hallarda beynəlxalq birlik (BMT və koalisiyalar) konkret dövlətin razılığı olmadan müdaxilə edir. Bu, "Müdafiə etmək məsuliyyəti" (Responsibility to Protect) doktrinasının təzahürüdür.

### *4.3.Silahlı münaqişələr və reparasiyalar problemləri*

Rusiya Federasiyasının Ukrayna (2014-2022) ərazisində hərbi əməliyyatları beynəlxalq hüquq üzrə "güc tətbiqi" və "suverenliyin pozulması" kimi qiymətləndirilir. BMT Baş Assambleyası və Avropa Şurası bu hərəkətləri beynəlxalq hüquqa zidd işğal aktı kimi tanımışdır və həm də siyasi və iqtisadi sanksiyalar vasitəsilə kollektiv cavab mexanizmini

tətbiq etdi. 14 noyabr 2022-ci il tarixli ES-11/5 saylı qətnamə Ukraynaya qarşı təcavüz üzrə reparasiya mexanizminin yaradılmasına çağırır. Sənəd öhdəliyi olmasa da, hüquq pozandan asılı olmadan zərərin əvəzinin institusionallaşdırılması tendensiyasını vurğulayır və kollektiv əks-tədbirlər müzakirəsini aktivləşdirir. İnkişaf perspektivləri - Ukrayna üzrə zərər reyestri modelinin presedent kimi tanınması [9].

***4.4.Kiber təhdidlərə görə dövlət məsuliyyət***

Transmilli təhdidlərin müasir formaların biri də kibertəhlükələrdir. Kibertəhlükələr - dövlət sistemlərinə hücum, seçkilərə müdaxilə, informasiya oğurluğu və s. - müasir beynəlxalq münasibətlərin əsas risklərindəndir. Əsas çətinlik atribusiya - yəni hücumu konkret dövlətə aid etmək problemidir. Bu sahədə BMT-nin informasiya təhlükəsizliyi üzrə hökumətlərarası ekspert qrupu (GGE) dövlətlərin kiberfəzada məsuliyyətli davranış prinsiplərini müəyyən etmişdir, Tallin Bələdçisi (2013, 2017) kibermünaqişələrə beynəlxalq humanitar hüququn tətbiqini əsaslandırmışdır. Kibertəhlükələr sahəsində vahid beynəlxalq müqavilə hələ mövcud deyil, lakin bununla belə, dövlətlərin məsuliyyət sahəsində yeni prinsip formalaşır - kiberfəzada "məsul diqqət" (due diligence), yəni dövlət öz ərazisindən və ya infrastrukturundan digər ölkələrə qarşı hücumların edilməsinə imkan verməməlidir. Nümunə kimi Estoniyaya kiberhücum (2007) - Rusiya tərəfindən həyata keçirildiyi iddia olunan hücum beynəlxalq müzakirə yaratmışdır; Stuxnet virusu (2010) - ABŞ və İsrail tərəfindən İranın nüvə obyektlərinə qarşı hazırlanmış kiberhücum nümunəsi kimi tanınır [10].

***4.5.Ekoloji təhdidlərə görə dövlət məsuliyyəti***

Ekoloji fəlakət və iqlim təhdidlərin qarşısının alınması və beynəlxalq məsuliyyətin yaranması müasir problemlərdən biridir. Ekoloji məsuliyyətin yaranmasın əsaslarını Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyası; 1972-ci il Stokholm və Rio-de-Janeyro 1992-ci il Bəyannamələri, 2015-ci il Paris İqlim Sazişi və s. beynəlxalq sənədlər təşkil edir. Bu sənədlərdə beynəlxalq ekologiya sahəsində əsas prinsiplər: ətraf mühitin indiki və gələcək nəsillər naminə mühafizəsi; transsərhəd ekoloji zərərin yolverilməzliyi; milli yurisdiksiya hüdudlarından kənarda yerləşən ekoloji sistemlərə vurulmuş zərərə görə dövlətlərin beynəlxalq məsuliyyəti və s. təsbit edilmişdir. Praktiki nümunə kimi Trail Smelter (ABŞ - Kanada, 1941) - transsərhəd çirklənməyə görə dövlət məsuliyyətinə dair ilk qərar; Lanou gölü (Fransa - İspaniya, 1957) - sənaye tullantılarına görə dövlətin nəzarət öhdəliyinin tanınması; Urgenda işi (Niderland, 2019) - məhkəmə qərarı iqlim dəyişikliklərinə qarşı daha ciddi tədbirlər görməyə məcbur etmişdir

Ekoloji məsuliyyət anlayışı indi nəsillər arası məsuliyyət səviyyəsinə yüksəlmişdir - yəni dövlətlər gələcək nəsillər qarşısında da öhdəlik daşıyırlar. Bu sahə yaxın gələcəkdə insan hüquqları qədər fundamental beynəlxalq hüquq sahəsinə çevrilə bilər. Məsələn, "Gabcíkovo-Nagymaros Project" (Macarıstan v. Slovakiya, 1997) işində məhkəmə bildirdi ki, dövlətlər ekoloji öhdəliklərə əməl etmədikdə, məsuliyyət daşıyırlar və zərərin bərpası üçün birgə addımlar atmalıdırlar [8; 11; 12].

***4.6.İqlim dəyişikliyi***

2024-cü ildə İTLM-in Kiçik Ada Dövlətləri Komissiyasının sorğusu üzrə məsləhətçi rəyi - iqlim dəyişikliyi kontekstində dövlət öhdəlikləri - BMT Dəniz Hüququ Konvensiyasının 194, 207 və 212-ci maddələrini istixana qazı emissiyalarının qarşısının alınmasına yönəlmiş due diligence öhdəliyi ilə birbaşa əlaqələndirdi. Bununla paralel BMT Baş Assambleyası Beynəlxalq Məhkəməyə "Dövlətlərin iqlim dəyişikliyinə dair öhdəlikləri" (iş № 187) üzrə rəy sorğusu göndərdi; açıq dinləmələr 2024-cü ilin dekabrında keçirilib, yekun rəy 2025-2026-cı illərdə gözlənilir. Bu, erga omnes və nəsillərarası ədalət (intergenerational equity) doktrinasının inkişafını proqnozlaşdırır [11; 12].

***4.7.Qlobal səhiyyə təhdidlərə görə dövlət məsuliyyəti***

20 may 2025-də ÜST tarixdən ilk Pandemiya Sazişini qəbul etdi; saziş hazırlıq və qarşılıqlı yardımın minimum standartlarını müəyyənləşdirir, əks-tədbirlər və məlumat mübadiləsi öhdəliyini təsbit edir, pozuntu halında arbitraj mexanizmi nəzərdə tutur. Bununla belə, bəzi dövlətlər (məs., Slovakiya) sənədi suverenliyə təhdid kimi qiymətləndirərək mübahisələndirir; bu, səhiyyədə məsuliyyət məsələlərinin siyasətliləşdiyini göstərir [13; 14].

***4.8.Kosmik fəaliyyət səhiyyəsində təhdidlərə görə dövlət məsuliyyəti***

Dövlətin bütün milli kosmik fəaliyyətə görə beynəlxalq məsuliyyəti prinsipi kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqında 1972-ci il Konvensiyasında müəyyən olunmuşdur. Kosmik fəaliyyətin hökumət orqanları və ya xüsusi şəxslər tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, məsuliyyəti dövlət daşıyır, beynəlxalq təşkilatın iştirak etdiyi halda isə, təşkilat və onun üzv-dövlətləri birgə məsuliyyət daşıyır. Kosmosun fəal mənimsənilməsi kosmik tullantıları nəticəsində yaranan zərərlər, peyklərin sıradan çıxarılması və hərbi məqsədə xidmət edən kosmos istifadəsi kimi yeni məsuliyyət məsələlərini gündəmə gətirir. Bu sahədə bəzi hüquq normaların aydın olmaması beynəlxalq mübahisələrin və konfliktlərin tənzimlənməsini çətinləşdirir.

Transmilli təhdidlər bir dövlətin sərhədləri ilə məhdudlaşmadığından, onların qarşısının alınması üçün kollektiv məsuliyyət mexanizmləri zəruridir: beynəlxalq sanksiyaların (BMT, Aİ, NATO vasitəsilə) tətbiqi; beynəlxalq istintaq komissiyaların (məsələn, MH17, COVID-19 və s.); xüsusi tribunal və beynəlxalq məhkəmələrin yaradılması və s.

Müasir transmilli təhdidlərin qarşısının alınmasında formalaşan yeni paradiqma - qlobal həmrəylik məsuliyyəti - dövlətlərin yalnız cavab deyil, həm də qabaqlayıcı fəaliyyət öhdəliyini nəzərdə tutur.

Dövlətlərin məsuliyyətə cəlb edilməsi üzrə beynəlxalq təcrübə və analitik təhlil göstərir ki, cəlbetmə mexanizmləri çox vaxt mürəkkəb və uzunmüddətli proseslərlə müşayiət olunur. Onların həyata keçirilməsi üçün əsas platformalar - Beynəlxalq Məhkəmə (ICJ), Beynəlxalq Cinayət Məhkəməsi (ICC), Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) və xüsusi beynəlxalq tribunal və arbitraj orqanlarıdır və onların fəaliyyətinin səmərəliyinin artırılmasına, icra mexanizmlərim möhkəmləndirilməsinə zərurət yaranır.

Müasir dövrdə dövlət məsuliyyətinin tətbiqində yaranan problemlərə aid etmək olar:

1. *Beynəlxalq hüququn icra mexanizmlərinin zəifliyi.* Beynəlxalq hüquq daxili hüquq kimi mərkəzləşdirilmiş məhkəmə və icra orqanlarına malik deyil. Dövlətlər öz iradələri ilə bu hüquqa tabe olduqları üçün, məsuliyyətin tətbiqi çox zaman siyasi iradədən asılı olur. Məsələn, BMT Təhlükəsizlik Şurasında veto hüququ beynəlxalq məsuliyyət mexanizmini tez-tez bloklayır.

2. *Beynəlxalq məhkəmələrin səlahiyyət məhdudiyyətləri.* Beynəlxalq Ədalət Məhkəməsi yalnız tərəflərin razılığı əsasında işlərə baxa bilir. Bu da onun fəaliyyət dairəsini daraldır. Məsələn, ABŞ - Nikaraqua işi (1986): güc tətbiqinə görə məsuliyyət. BMT-nin Beynəlxalq Məhkəməsi Nikaraquanın iddiası əsasında ABŞ-ı onun ərazisindəki silahlı qrupları dəstəkləməkdə, limanlarını minalamaqda və dövlət suverenliyini pozmaqda günahkar bildi. ABŞ-ın zərəri ödəmək öhdəliyi yaranmışdır, lakin qərarın icrası ABŞ tərəfindən təmin edilməmişdir. Bu nümunə göstərir ki, siyasi amillər çox vaxt hüquqi mexanizmlərin tətbiqini məhdudlaşdırır.

3. *Qeyri-dövlət aktorlarının artan rolu.* Transmilli korporasiyalar, özəl hərbi şirkətlər və silahlı qruplar beynəlxalq münaqişələrdə aktiv rol oynayır. Lakin dövlət məsuliyyəti çərçivəsi bu aktorları əhatə etmir. Bu, məsuliyyət boşluğu yaradır və beynəlxalq hüquq məsuliyyətinin tətbiqini çətinləşdirir.

4. *Humanitar müdaxilələr və selektiv ədalət.* “İnsani müdaxilə” və “müdaxiləsiz suverenlik” prinsipləri arasında balansın olmaması dövlət məsuliyyətinin siyasi məqsədlərlə manipulyasiyasına şərait yaradır. Kosovo (1999) və Liviya (2011) nümunələri göstərir ki,

beynəlxalq hüququn tətbiqi bəzən seçici xarakter daşıyır. Məsələn, Bosniya və Herseqovina - Serbiya işi (2007). Beynəlxalq Məhkəmənin qərarlarına görə, Serbiya birbaşa soyqırım törətməsə də, soyqırımın qarşısını almaq və cəzalandırmaq öhdəliyini pozmuş hesab edildi və bu, dövlətin dolayı (indirect) məsuliyyətinə aid presedent yaratdı [5; 6].

5. *Ekoloji və kiber məsuliyyət məsələləri.* Yeni çağırışlar - iqlim dəyişikliyi, ekoloji zərər, kiberhücumlar - dövlətəri məsuliyyətə cəlb etmənin yeni formalarını tələb edir. Lakin bu sahələrdə normativ hüquqi baza hələ tam formalaşmayıb, zərərin sübutu və məsuliyyətin müəyyən edilməsini mürəkkəbləşdirir və çətinləşdirir.

Yuxarıda qeyd olunan problemlərin təhlili, əlbəttə ki, tam və qəti nəticə olaraq qəbul edilə bilməz. Beynəlxalq məsuliyyət institutunun inkişafında təklif olunan istiqamətlər və nəticələr daha geniş müzakirəyə ehtiyac duyur. Göstərilən problemlərin daha dərindən nəzəri təhlilində istifadə edilə və beynəlxalq hüquqda məsuliyyət məsələsinin inkişafına töhfə verə bilər.

Beynəlxalq hüquqi məsuliyyət institutunun inkişaf perspektivləri aşağıdakı kimi müəyyən edilə bilər:

- Beynəlxalq hüquq pozuntusu anlayışına və onun elementlərinin təhlilinə praktikada vahid yanaşmanın olmaması. Dövlətlər beynəlxalq hüquqa zidd əməlləri müxtəlif şəkildə şərh edirlər. Bu, məsuliyyətin tətbiqini çətinləşdirir. Məsələn, güc tətbiqi, suverenliyin pozulması və daxili işlərə müdaxilə kimi hallar müxtəlif prizmalardan qiymətləndirilir.
- Kiber təhlükəsizlik və kosmik fəaliyyət kimi müasir təhdidləri nəzərə alaraq yeni çoxtərəfli müqavilələrin hazırlanması.
- BMT Təhlükəsizlik Şurasının islahatı və veto hüququnun məhdudlaşdırılması.
- Beynəlxalq məhkəmə qərarlarının icrasını təmin edən beynəlxalq nəzarət və icra mexanizmlərinin gücləndirilməsi.
- Hüquqa zidd hərəkətlərin müəyyənləşdirilməsi üçün vahid meyarların işlənib hazırlanması və dövlətlərlə yanaşı, qeyri-dövlət iştirakçıların məsuliyyətinin bölgüsü.
- Münaqişələrin həllində beynəlxalq məhkəmələrin və arbitraj instansiyalarının rolunun artırılması, qərarların icra mexanizmlərin qüclədirilmısi və beynəlxalq məsuliyyət standartlarının unifikasiyası.
- Qlobal əməkdaşlıq və informasiya mübadiləsinin genişləndirilməsi nəticəsində pozuntuların qarşısının alınması.

Müasir transmilli təhdidlər - beynəlxalq terrorizm, kibertəhlükələr, ekoloji fəlakətlər və qlobal böhranlar kontekstində dövlətlərin məsuliyyətə cəlb olunmasının xüsusiyyətlərini müəyyənləşdirmişdir. BMT, Beynəlxalq Məhkəmə və digər beynəlxalq institutların təcrübəsinin təhlili "məsuliyyətli suverenlik" prinsipinin təkamülü və kollektiv məsuliyyətin yeni formaları meydana gətirmişdir. Müasir dövrdə məsuliyyət artıq yalnız hüquqi öhdəlik deyil, etik və siyasi məsuliyyətin sintezi kimi çıxış edir. Rəqəmsal, ekoloji və humanitar çağırışlar dövlətlərdən yeni dərəcədə şəffaflıq, hesabatlılıq və qlobal həmrəylik tələb edir.

Transmilli təhdidlərin qarşının alınmasında dövlətlərin məsuliyyəti konsepsiya retrospektiv məsuliyyətdən (pozuntuya görə cəza) profilaktik və kollektiv məsuliyyətə keçidi, fərdi və kollektiv məsuliyyətin fərqləndirilməsi, eləcə də rəqəmsallaşma və qloballaşma şəraitində universal standartların formalaşması nəzərdə tutur. Yəni dövlətlər artıq təkcə baş verən hadisələrə görə deyil, həm də qlobal risklərin qarşısının alınması üçün birgə cavabdehlik daşıyırlar. Bu mənada dövlət məsuliyyəti XXI əsrin beynəlxalq münasibətlərində ədalət və dayanıqlı inkişafın əsas meyarı kimi formalaşır.

**5.Nəticə**

Dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti - beynəlxalq münasibətlərdə sabitlik və ədalətin təminatı üçün fundamental institutdur. Dövlətlərin beynəlxalq məsuliyyətə cəlb edilməsi beynəlxalq hüququn legitimliyini və ədalət prinsipini qoruyan əsas mexanizmdir.

Lakin qloballaşma, texnoloji inqilab, yeni transmilli təhdidlər və geosiyasi gərginliklər bu institutun effektivliyini zəiflədir. Yeni texnoloji və siyasi reallıqlar institutun adaptasiyasını və yenilənməsini tələb edir. Müasir dövrdə əsas vəzifə dövlətlərin məsuliyyətinin universal, şəffaf və icbari mexanizmlər vasitəsilə tətbiqini təmin etməkdir. Yalnız beynəlxalq birliyin səyi dinc şərait və beynəlxalq təhlükəsizliyin qorunması naminə bu institutun effektiv işləməsini təmin edə bilər.

## 6.REFERENCES


1. United Nations. (2010). *Charter of the United Nations and Statute of the International Court of Justice*. UN Department of Public Information. Baku. (in Azerbaijani)
2. United Nations. (2012). *Materials on the responsibility of States for internationally wrongful acts* (UN Legislative Series, ST/LEG/SER.B/25; Sales No. E.12.V.12). (in Azerbaijani)
3. United Nations General Assembly. (2007). *Responsibility of States for internationally wrongful acts: Selection of decisions of international courts, tribunals and other bodies: Report of the Secretary-General* (A/62/62 & Add.1). (in Azerbaijani)
4. United Nations General Assembly. (2010). *Responsibility of States for internationally wrongful acts: Selection of decisions of international courts, tribunals and other bodies: Report of the Secretary-General* (A/65/76). (in Azerbaijani)
5. Krouford, C. R. (2002). *Articles on the responsibility of States for internationally wrongful acts: Introduction, text and commentaries*. Cambridge University Press. UN Audiovisual Library of International Law. Retrieved from www.un.org/law/avl (in Azerbaijani)
6. International Court of Justice. (1949–1997). *Corfu Channel case (1949); Nicaragua v. United States (1986); Gabcikovo–Nagymaros Project (1997)*. (in Azerbaijani)
7. International Court of Justice. (1986). *Nicaragua v. United States of America*. (in Azerbaijani)
8. International Court of Justice. (1997). *Gabcikovo–Nagymaros Project*. (in Azerbaijani)
9. United Nations General Assembly. (2022). *Resolution ES-11/5: Furtherance of remedy and reparation for aggression against Ukraine* (14 November 2022). (in Azerbaijani)
10. International Court of Justice. (2023). *Tallinn Manual 2.0* (Analysis 2023). (in Azerbaijani)
11. International Court of Justice. (2024). *Obligations of States in respect of Climate Change* (Case No. 187). Press release 2024/75. (in Azerbaijani)
12. International Tribunal for the Law of the Sea. (2024). *Advisory Opinion on Climate Change* (21 May 2024). (in Azerbaijani)
13. Reuters. (2025, May 19). *Slovakia to challenge adoption of global pandemic agreement*. (in English)
14. World Health Organization. (2025, May 20). *World Health Assembly adopts historic Pandemic Agreement*. (in English)
15. Egorov, S. A. (Ed.). (2014). *International law: Textbook*. Moscow. (in Russian)
16. Mammadov, R. F. (Trans.). (2002). *International law: Textbook*. Baku. (in Azerbaijani)
17. Elizade, R. (2020). *State responsibility in international law: Theoretical and practical aspects*. Baku. (in Azerbaijani)
18. Kuznesov, V. I. (Ed.). (2023). *International law: Textbook*. Moscow. (in Russian)


## ƏDƏBİYYAT


1. Birləşmiş Millətlər Təşkilatı. (2010). *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu*. BMT İctimai Əlaqələr Departamentinin nəşri. Bakı.

2. Birləşmiş Millətlər Təşkilatı. (2012). *Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyətinə dair materiallar* (BMT Qanunvericilik Seriyası, ST/LEG/SER.B/25; Satış No. E.12.V.12).
3. Birləşmiş Millətlər Təşkilatı, Baş Assambleya. (2007). *Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyəti: beynəlxalq məhkəmələrin, tribunalların və digər orqanların qərarlarının seçməsi: Baş katibin hesabatı* (A/62/62 və Add.1).
4. Birləşmiş Millətlər Təşkilatı, Baş Assambleya. (2010). *Dövlətlərin beynəlxalq qeyri-hüquqi aktlara görə məsuliyyəti: beynəlxalq məhkəmələrin, tribunalların və digər orqanların qərarlarının seçməsi: Baş Katibin hesabatı* (A/65/76).
5. Krouford, C. R. (2002). *Beynəlxalq Hüquq Komissiyasının dövlətin məsuliyyətinə dair maddələri: giriş, mətn və şərhlər*. Kembric Universiteti Nəşriyyatı. BMT Beynəlxalq Hüquq Audiovizual Kitabxanası. (© BMT, 2013). Retrieved from www.un.org/law/avl
6. Beynəlxalq Ədalət Məhkəməsi. (1949–1997). *Corfu Channel case (1949); Nicaragua v. United States (1986); Gabcíkovo–Nagymaros Project (1997).*
7. Beynəlxalq Ədalət Məhkəməsi. (1986). *Nicaragua v. United States of America*.
8. Beynəlxalq Ədalət Məhkəməsi. (1997). *Gabcíkovo–Nagymaros Project.*
9. BMT Baş Assambleyası. (2022). *Qətnamə ES-11/5: Furtherance of remedy and reparation for aggression against Ukraine* (14 noyabr 2022).
10. Beynəlxalq Ədalət Məhkəməsi. (2023). *Tallinn Manual 2.0* (Təhlil 2023).
11. Beynəlxalq Ədalət Məhkəməsi. (2024). *Obligations of States in respect of Climate Change* (iş № 187). Press-reliz 2024/75.
12. Dəniz Hüququ üzrə Beynəlxalq Tribunal. (2024). *Advisory Opinion on Climate Change* (21 may 2024).
13. Reuters. (2025, May 19). *Slovakia to challenge adoption of global pandemic agreement*.
14. Ümumdünya Səhiyyə Təşkilatı (WHO). (2025, May 20). *World Health Assembly adopts historic Pandemic Agreement*.
15. Yeqorov, S. A. (Red.). (2014). *Beynəlxalq hüquq: Dərslik* (rus dilində). Moskva.
16. Məmmədov, R. F. (Tərc.). (2002). *Beynəlxalq hüquq: Dərslik*. Bakı.
17. Əlizadə, R. (2020). *Beynəlxalq hüquqda dövlət məsuliyyəti: nəzəri və praktiki aspektlər*. Bakı.
18. Kuznesov, V. İ. (Red.). (2023). *Beynəlxalq hüquq: Dərslik* (rus dilində). Moskva.